**İki sahil.-**2023.-3 mart.-№40.-S.6.

**Daşkənd – daşı-qayası qan ağlayan kənd...**

**İki dəfə erməni vəhşiliyi ilə üzləşmiş daşkəndlilər Qərbi Azərbaycana qayıtmaq ümidi ilə yaşayırlar**

**Mahir Rəsuloğlu**

Vaxtilə azərbaycanlıların mütləq əksəriyyət təşkil etdiyi indiki Ermənistan ərazisindən soydaşlarımızın deportasiyası tam başa çatdırıldıqdan sonra ermənilər tarixi yurd yerlərimizin bir qismində yaşasalar da yüzlərlə kəndimiz tamamilə dağıdılaraq xarabalığa çevrilib. Faktlar göstərir ki, Ermənistan rəhbərliyi Qərbi Azərbaycanda məqsədyönlü şəkildə xalqımızın tarixi irsinə qarşı mədəni soyqırımı həyata keçirib. Çar Rusiyası və SSRİ dövrünün məxfi xəritələrinin məlumatlarına, həmçinin son dövrlər peyk görüntülərinə əsasən dəqiqləşdirilmişdir ki, indiki Ermənistan ərazisində hazırda 450-dən çox kəndimizin xarabalıqları qalmaqdadır. Hər bir kənd xarabalığı isə Qərbi azərbaycanlıların başına gətirilən faciələrdən xəbər verir. Arxiv sənədlərində bu kəndlərin bir çoxunda ötən əsrin əvvəllərində Cənubi Qafqaza axın edən ermənilər tərəfindən kütləvi qətliamların həyata keçirilməsi haqqında məlumatlar mövcuddur. Tarixi faciələrlə dolu belə kəndlərimizdən biri də Qərbi Azərbaycanın Göyçə mahalında yerləşən Daşkənd kəndidir.

İndi ermənilər nə qədər inkar etməyə çalışsalar da 1948-ci ilə qədər Göyçə gölünün əhatəsində yerləşən Göyçə mahalının əsas sakinləri azərbaycanlılar olub. 1930-cu ildən ərazisi beş inzibati rayona bölünmüş Göyçənin ən böyük rayonu Basarkeçər idi. Qədim tarixə malik Daşkənd kəndi isə ərazisinə görə Basarkeçərin azərbaycanlılar yaşayan kəndlərindən ən böyüyü olmuşdur. Kənd Yuxarı Şorca, Aşağı Şorca, Sarıyaqub, Qayabaşı, Qoşabulaq, Basarkeçər, Qırxbulaq kəndlərinin əhatəsində yerləşib.

Araşdırmaçıların məlumatlarına görə, Daşkəndin adı ilk dəfə 1590-cı ilə məxsus yazılı mənbələrdə çəkilib. 1728-ci ildə İrəvan əyalətinin Zarzəmin nahiyəsində, XIX əsrdə isə İrəvan quberniyasının Novobayazid qəzasında Taşkənd kimi qeyd olunub, adı "İrəvan əyalətinin icmal dəftəri"ndə, Qafqazın 5 verstlik xəritəsində mövcuddur. "Daşkənd" sözünün ilk başa düşülən mənasının "daşlıq (qayalıq) yerdə kənd" olduğu bilinsə də bəzi araşdırmaçıların fikrincə, toponim qədim türk dilində "xarici", "kənar", "uzaq" mənalarında işlənən daş və kənd sözlərinin birləşməsindən əmələ gəlib, "uzaqda, kənarda yerləşən kənd" deməkdir. Ancaq Daşkəndin tarixi adı Qərbi Azərbaycanda mövcud olan digər kənd və şəhərlərimizin aqibətini yaşayıb, erməniləşdirilib. Belə ki, Ermənistan prezidentinin 19 aprel 1991-ci il tarixli fərmanı ilə kəndin adı dəyişdirilərək Hayrk (ata) qoyulub.

Qeyd edək ki, Daşkənddə mövcud olmuş VI-VII əsrlərə aid oğuz qəbiristanlığı, IX-XII əsrlərə aid alban kilsəsinin xarabalığı burada tarixən türklərin yaşadığını sübut edir. Əhalisi əsasən heyvandarlıq və əkinçiliklə məşğul olan kənddə orta məktəb, klub, kitabxana, xəstəxana fəaliyyət göstərib.

Tarixi mənbələrdə Daşkənddə 1831-ci ildə 357, 1916-cı ildə isə 1054 nəfər yalnız azərbaycanlının yaşadığı qeyd olunur. 1919-cu il yanvarın 20-23-də ermənilər vəhşicəsinə kəndə hücum edərək qətliamlar törədib. Daha sonra azərbaycanlıları öz ata-baba yurdlarından qovaraq kənddə özləri məskunlaşıblar. Lakin indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma kəndlərinə qayıdıb və kənddə yerləşdirilmiş 80 nəfər erməninin çıxarılmasına nail olublar. 1922-ci ildə Daşkənddə 882, 1988-ci ilin noyabr ayının axırlarında soydaşlarımız ikinci dəfə tarixi-etnik torpaqlarından qovulan zaman isə 2100 nəfərdən artıq azərbaycanlı yaşayıb. Təəssüf ki, Qərbi Azərbaycanda olan digər yurd yerlərimiz kimi indi Daşkənd kəndində də yalnız ermənilər yaşayır...

Daşkəndlilərin hər iki deportasiyası zamanı ermənilər burada yaşayan azərbaycanlılara qarşı amansız qəddarlıqlar, qırğınlar törədiblər. Yazıçı-publisist Salman Vilayətoğlu "Oğuz Elinin müqəddəs ocağı Göyçə" kitabında həmin qırğınlar haqqında bəhs edərək yazır ki, 1918-ci ildə ermənilər öz mənfur niyyətlərini reallaşdırmaq üçün Göyçədə qətliamlara rəvac verəndə Daşkənd ən çox zərərçəkən yurd yerlərindən biri oldu: "Bu tarixi fakt Daşkənd sakinləri Məşədi Qasım Hacı Kərim oğlu və Böyükəli Hacı Mirzə Ələkbər oğlunun Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə 23 yanvar 1919-cu il tarixli ərizələrində tam təfsilatı ilə əks olunub (O zaman Göyçənin şərq və şimal-şərq sahilləri rəsmən Azərbaycan Demokratik Cümhuriyyətinin inzibati ərazisinə daxil idi). 1919-cu il aprelin 13-20-də daşnakların Göyçəyə növbəti basqını zamanı 22 kənd dağıdıldı, 15 min əhali Cavanşir qəzasının dağlıq ərazilərinə qaçmaq məcburiyyətində qaldı..."

S.Vilayətoğlu yazır ki, ermənilərin Daşkəndə qarşı bu aqressivliyi səbəbsiz deyildi. Çünki aprel qırğınlarından əvvəl daşnaklar burada ciddi məğlubiyyətlə üzləşmişdilər və Andronikin "sağ əli" sayılan Sulikovun öldürülməsində iştirak edənlərdən birinin daşkəndli Aşıq Nəcəf olduğu barədə şayiələr erməniləri təbdən çıxarmışdı. Əslində isə quldur Sulikovun qətlinin Aşıq Nəcəflə heç bir əlaqəsi yox idi. Buna baxmayaraq, ermənilər Aşıq Nəcəfi hədəf seçmişdilər və mahalın ən keçərli söz sahibi olan bu nurlu şəxsiyyəti məhv etməkdə israrlı idilər: "Məhv etdilər də. Hiylə ilə danışığa dəvət edərək Aşıq Nəcəfi və onunla danışığa

gedən Səməd ağanı qətlə yetirdilər. Aprel qırğınlarında artıq Aşıq Nəcəf sağ deyildi, amma bu da daşnakların ürəyini soyutmamışdı. Onlar bu haqq aşığının nəslinin qanına susamışdılar... Kənd əhalisinin yarısı qəfil hücum zamanı qırıldı, təxminən 300 nəfər diri-diri yandırıldı və quyulara doldurularaq üstləri torpaqlandı. 1922-ci ildə kəndə qayıdanların sayı cəmi 882 nəfər, yəni 1916-cı ildəki əhalinin 40 faizi həddində idi ki, bu da Daşkəndin 1919-cu ildə yaşadığı faciənin miqyasını tam mənada təsəvvür etməyə imkan verir...”

İki dəfə deportasiyaya məruz qalmış, yüzlərlə sakini ermənilər tərəfindən insanlığa sığmayan qəddarlıqla qətlə yetirilmiş Daşkənd kəndinin sakinləri 1988-ci ildən o doğma torpaqların həsrəti, nə vaxtsa yenidən geri qayıtmaq ümidi ilə yaşayırlar. Bu həsrətin bitəcəyi, yüzminlərlə Qərbi azərbaycanlılar kimi daşkəndlilərin də öz kəndlərinə, ata-baba yurdlarına qayıdacaqları gün gələcək. O gün mütləq gələcək!..